# Əlcəzairdə Şuşa haqqında kitab çapdan çıxıb




Əlcəzairdə akademik Zemfira Səfərovanın "Azərbaycanın musiqi qalası - Şuşa" kitabı çapdan çıxıb.

AZƏRTAC ölkəmizin Əlcəzairdəki səfirliyinə istinadla xəbər verir ki, 2024-cü ildə Şuşa şəhərinin "İslam dünyasının mədəniyyət paytaxtı" elan olunması çərçivəsində diplomatik nümayəndəliyimizin dəstəyi ilə AMEA-nın həqiqi üzvü, akademik Zemfira Səfərovanın müəllifi olduğu "Azərbaycanın musiqi qalası - Şuşa" kitabı ərəb dilində bu ölkənin "DJIL Print" nəşriyyatı tərəfindən nəfis şəkildə çapdan çıxıb.

Kitabda Şuşa şəhərinin 1750-ci ildə Qarabağ xanı Pənah Əli Xan tərəfindən əsasının qoyulması, burada Azərbaycanın görkəmli musiqiçiləri, bəstəkarları və ifaçılarının yetişməsi haqqında ərəb ictimaiyyətinə müfəssəl məlumat verilir. Bununla yanaşı, bu qədim mədəniyyət paytaxtında "Məslisi-üns", "Məclisi-fəramuşan" kimi ədəbi və musiqili məclislərin təşkil edildiyi, "Qarabağın konservatoriyası" adı verilmiş bu şəhərin 30 ilə yaxın erməni işğalı altında olduğu və 44 günlük Vətən müharibəsi zamanı azad edildiyi diqqətə çatdırılır.

Müəllif Şuşanın Azərbaycan, Şərq və bütövlükdə dünya mədəniyyəti üçün əhəmiyyətindən də söz açır.

Kitabda Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşanın işğaldan azad olunması münasibətilə xalqa müraciəti də yer alıb.

Azərbaycan. - 2024.- 25 iyun, №130.- S.10.